**Cəlil Məmmədquluzadə**

# HEKAYƏLƏR

qanun nəşriyyatı

Bütün şüurlu həyatı ilə Azərbaycan xalqına, onun azad və xoşbəxt gələcəyinə xidmət edən, öz maarifçilik ideyaları ilə nadanlığa, səfalətə, savadsızlığa qarşı mübarizə aparan Cəlil Məmmədquluzadənin "HEKAYƏLƏR" kitabına əsasən, uşaq və yeniyetmələr üçün qələmə aldığı hekayələri toplanıb. Şübhəsiz ki, yüz ilə yaxın bir dövrdə rəngarəngliyini, bədii yükünü, ideya hədəfini itirməyən hekayələr yenə də oxucuların böyük marağına səbəb olacaq. Kitabda  böyük Mirzə Cəlilin "Danabaş kəndinin əhvalatları", "Qurbanəli bəy", "Poçt qutusu", "Konsulun arvadı" və s. hekayələri yer alıb.

**Cəlil Məmmədquluzadə**
**HEKAYƏLƏR**

Janr: klassik Azərbaycan ədəbiyyatı
Yaş qrupu: 12+
Ölçü: 145x215 mm
Cild: yumşaq
Səhifə sayı: 248

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Korrektor: | Nihat Pirizadə |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-381-4

© Qanun Nəşriyyatı, 2019; 2025: 2026
© «Gənclik» nəşriyyatı, 1982

# MÜNDƏRİCAT


DANABAŞ KƏNDİNİN ƏHVALATLARI ........ 6

EŞŞƏYİN İTMƏKLİYİ ........ 13

XİTAMƏ ........ 97

POÇT QUTUSU ........ 106

USTA ZEYNAL ........ 115

DƏLLƏK ........ 129

PİRVERDİNİN XORUZU ........ 132

İRANDA HÜRRİYYƏT ........ 136

QURBANƏLİ BƏY ........ 156

QUZU ........ 179

MOLLA FƏZLƏLİ ........ 186

NİGARANÇILIQ ........ 192

KONSULUN ARVADI ........ 198

XANIN TƏSBEHİ ........ 204

QƏSSAB ........ 209

ZIRRAMA ........ 213

SİRKƏ ........ 218

SAQQALLI UŞAQ ........ 223

BƏLKƏ DƏ QAYTARDILAR ........ 228

BUZ ........ 236

İKİ ALMA ........ 243

SARI ........ 246

# DANABAŞ KƏNDİNİN ƏHVALATLARI

*Nağıl edibdi Lağlağı Sadıq.*
*Yazıya götürübdü qəzetçi Xəlil.*

***Qəlbimdən gələn səs mənə çox zadlar öyrədir. Haman o səs pak və təmiz insafımın səsidir ki, hamıda o insaf var. Hər kəs guş-huş ilə onun buyurduğuna qulaq asıb, əmrinə əməl eləsə, çox sirlərdən agah olub, çox şeylər bilər.***

***S o k r a t***

## *BİR YÜNGÜLVARI MÜQƏDDİMƏ*

Mənim adım Xəlil və yoldaşımın adı Sadıqdı. Hər ikimiz Danabaş kəndində anadan olmuşuq. Mən özüm anadan olmuşam düz otuz il bundan irəli; yəni mənim otuz yaşım var. Yoldaşım Sadıq da, mən deyirəm, ancaq mən sinndə olar. Amma mən ondan bir az cavan görükürəm. Onun boyu ucadı, mənim boyum alçaqdı; amma mən ondan doluyam. O, çox qaradı və kosadı, amma mən ağımtıl və top saqqalam. Bir təfavütümüz ordadır ki, mən gözlük qoyuram, gözlərim çox zəifdi; amma yoldaşımın gözləri çox salamatdı. Bunun da səbəbi odur ki, mən əhli-savadam, yazı-pozu mənim gözümə ziyan eləyibdi.

Müxtəsər, biz hər ikimiz Danabaş kəndinin sakiniyik. Mənim sənətim qoltuqçuluqdu, yəni dörd-beş top çit qoltuğuma vurub, dolanıram öz kəndimizi, ya qeyri kəndləri, çit-mit satıb, bir tövr güzəranımı keçirirəm. Yoldaşımın sənəti baqqaldı, yəni bir daxmaya üç-dörd put duz, bir qutu kişmiş və dörd-beş paçka maxorka tütünü qoyub satır və o da bu cür rüzgarını keçirir.

Vəssəlam, hər ikimiz Allah-taalanın kasıb bəndələrindənik.

Qərəz, başağrısı da olur, amma genə gərək deyim; çünki mən bilirəm ki, bu əhvalatı oxuyan rəfiqlərim artıq təəccüb edəcəklər, necə yəni qəzetçi Xəlil və lağlağı Sadıq? Pəs rəfiqlərimi intizarçılıqdan çıxarmaqdan ötrü genə gərək bir neçə söz ərz edəm; hərçənd başağrısı olur.

Mən deyirəm bütün Qafqaziyyə vilayətində bizim Danabaş kəndi kimi məzəli kənd yoxdu. Demirəm ki, pisdi, Allah eləməsin. Mən heç vaxt haqqı itirmərəm. Doğrudur, mən bir az incimişəm kəndimizdən; amma bu, kəndimizin pisliyinə dəlalət eləməz ki! İki yüz mənim kimi dılğır adam incisin bizim kənddən, bundan belə bizim kəndə genə pis demək haqdan kənar olar.

Yox, vallahi, billahi, bizim kənd çox yaxşı kənddi. İnşallah, əgər mənim ərzimə axıra kimi səbr ilə qulaq versən, özün görərsən ki, bizim kənd pis kənd deyil.

Hələ pisliyi, yaxşılığı qalsın kənarda. Sözüm orda deyil; sözüm orasındadı ki, bizim kənddə şəxs yoxdu ki, onun bir ayaması olmasın.

Bizlər ayama deyirik. Bilmirəm başa düşdünüz, ya yox? Ayama, yəni ləqəb.

Hələ burdan bir haşiyə çıxaq.

Mən ləqəb sözünü bildirə kimi bilməzdim; çünki dərsim o qədər yoxdu, "Camei-Abbas"dan savayı bir kitab oxumamışam. Bildir bizim kənddə o taydan bir molla mərsiyə oxuyurdu. Amma heyif adı yadımdan çıxıbdı. Bir gün bu mollanın yolu düşdü bizim Sadığın dükanına. Görükürdü molla irəlidən bilirmiş ki,

Sadığa lağlağı Sadıq deyirlər. Dükanda məndən savayı bir neçə kətdi də var idi. Molla, Sadıqdan iki paçka maxorka tənbəkisi alıb, paçkanın birini açdı və çubuğunu doldurub od istədi. Sadıq bir spiçka çəkdi, molla çubuğu alışdırıb Sadığa dedi:

– Allah atana rəhmət eləsin.

Sonra çubuğu bir neçə dəfə sümürüb, üzünü tutdu Sadığa:

– Əxəvizadə[1], nə illət, cənabınızın ismi-şərifinə[2] lağlağı ləqəbi izafə artırırlar?

Axundun sözlərini nəinki kətdilər, heç mən özüm də başa düşmədim. Vəhalon ki mən oturanların yanında hələ alim idim. Amma, söz yox, hamımız başa düşdük; axund soruşurdu niyə Sadığa lağlağı deyirlər. Sadıq bir az duruxub cavab verdi ki, lağlağı onun ayamasıdı. Axund təəccüblə dübarə soruşdu:

– Oğlan, ayama nədi, qəribə avam adamsınız!..

Sadıq səbəbini soruşandan sonra axund bizi başa saldı ki, lağlağı Sadığın ayaması deyil, ləqəbidi. Ayama avam sözüdür, ləqəb ərəb sözüdür. Axırda axund bərkdən-bərk bizə tapşırdı ki, ayama ləfzini dilimizə gətirməyək, ləqəb deyək.

Biz hamımız razı olduq və "bəli" cavabdan savayı bir söz demədik.

Sonra Sadıq üzünü axunda tutub soruşdu:

– Axund, cənabınız gərək ərəb dərsində çox güclü olasınız.

Molla cavab verdi:

– Gədə, nə söyləyirsən? Molla olmaq, mərsiyə demək məgər asan əmrdi? Ərəb dərsini tamam eyləməmiş adamı məgər minbərə qoyarlar?

Nağafil Sadıq axunddan bu cür soruşdu:

– Axund, çörəyə ərəbcə nə deyirlər?

Axund çubuğu sümürüb, bir baxdı yerə və öskürüb cavab verdi:

---

[1] Qardaşoğlu
[2] Şərəfli adına

– Qardaşım, Ərəbistanda çörək olmaz ki, çörəyə bir ad qoyalar. Orda düyüdən savay özgə şey yeməzlər.

Sadıq dübarə axunda sual verdi:

– Pəs düyüyə ərəbcə nə deyirlər?

Axund çubuğu sümürüb öskürdü və az keçdi cavab verdi:

– Qardaşoğlu, sən elə doğrudan lağlağı imişsən. Kətdilər yerində sənə lağlağı deyiblər.

Bu sözləri deyib axund əbasını düzəldib, dükandan çıxıb, getdi. Biz hamımız o günü axşama kimi gülməkdən sakit olmadıq.

Məsələn, mənim adım Xəlildi, mənim adımı qoyublar qəzetçi Xəlil. Mən, vallah, bilmirəm qəzet nədi. Qəzetçi bir şəxsdi ağlı, kamalı cəhətə yaxşı əhvalatlar, yaxşı xəbərlər yığıb, çap eləyib dağıdır o yana-bu yana. Amma mən bilmirəm ki, mən haradan qəzetçi oldum. İnşallah, ərz elərəm nə səbəbə mənə qəzetçi deyirlər, mənim yoldaşıma deyirlər lağlağı Sadıq, yəni çox danışan.

Hələ bizə hörmət qoyublar; bizim ləqəbimiz çox gülməli deyil. Elə ləqəblər var bizim Danabaş kəndində ki, desəm uğunub gedərsən. Məsələn, girdik Həsən, dəvə Heydər, yalançı Səbzəli, eşşək Muxtar, doşan Qasım. Müxtəsər, bu cür ayamalar bizim Danabaş kəndində hədsizdi. Əgər duram hamısını ərz etməkliyə, bütün Rusiyyətin karxanalarında kağız qalmaz.

Mənim yoldaşım Sadığın adını qoyublar lağlağı. And olsun bizi yaradana, bu ləqəb o kişiyə heç yaraşmır. Doğrudu, Sadıq çox danışar. Elə hər yanda oturub durub deyəcək. Deyir, deyir və yorulmaq bilmir. Amma neyliyim, bir belə şirinkəlam, mən deyərəm, yer üzündə yoxdu.

Bir də ki, bizim Danabaş kəndində elə bilirlər ki, hər bir çox danışan adama lağlağı demək olar. Axır çox danışan da var, çox danışan da. Mən elə şəxslər görmüşəm ki, səhərdən-axşamadək danışıb, mən heç doymamışam. Əgər hamı çox danışana lağlağı demək olsaydı, gərək biz cəmi vaizlərə lağlağı deyəydik; çünki onlar minbərə çıxıb, yenmək bilməzlər.

Xeyr. Hamı çox danışana lağlağı demək olmaz. Birisi başlayır Allah-taalanın barəsində söhbət edir, ya qeyrisi öz Kərbəlaya və Məkkəyə getməyindən nağıl edir, məgər bu cür şəxslərə demək olar lağlağı? Xeyr, olmaz; günahdı və haqdan uzaqdı bu cür sözləri danışmaq.

Qoy hər kəs hər nə deyir-desin. Qoy Sadığa desinlər lağlağı; amma o kişi ölən günə kimi mənim rəfiqim, müsahibim və həmdərdimdi! Bəzi qızını söyür, bəzi anasını.

Bəlkə də elə Sadıq doğrudan lağlağıdı. Amma o danışanda doğrudan mən həmişə gərək duram onun dodaqlarından öpəm.

Pəs mənə niyə deyirlər qəzetçi? Bunun səbəbini ərz edim. Mənə o vaxt qəzetçi dedilər ki, mən Sadıq ilə müsahiblik başladım. Həqiqətdə mənim adımın qəzetçi qoyulmağına bais yoldaşım Sadıq olubdu.

Burda mətləb bir az uzandı.

Mən deyərəm iki il olar ki, biz tapışmışıq. Əhvalat bu cür oldu: bir günləri bir neçə top çit qoltuğuma vurub getdim Sadığın dükanına. O vədə bizim aramızda bir elə rəfiqlik yox idi. Bir qədər oturdum. Sadıq bir çubuq doldurdu verdi, mən başladım çəkməyə. Dükanda qeyri bir şəxs yox idi. Mən çubuğu çəkməyə məşğul oldum. Sadıq da, söz yox, başladı söhbəti. Mənə onun söhbəti həmişə xoş gəlirdi, necə ki, qabaqca ərz etdim qulluğunuza; amma bu dəfə mən bu kişiyə lap aşiq oldum. Bu dəfə mənim rəfiqim bir elə şirin əhvalat başladı ki, mən deyərəm bəlkə iyirmi-otuz müştəri dükana girdi və boş çıxdı. Hər gələnə deyirdik ki, sən istəyən şey dükanda yoxdu. Dedi, dedi, dedi, axırı bir yerdə dayandı. Bir diqqətnən baxdı mənim üzümə, bir ah çəkdi və dedi:

– Xəlil əmioğlu, mənim bir arzum var.

Dedim:

– Qardaşım, nədi arzun?

Dedi: